# Xocalı soyqırımı xarici KİV-də

**Anatoli Liven:** “Erməni qoşunları tərəfindən həyata keçirilən kütləvi insan qırğını barədə məlumat toplayan zaman atəşə tutuldum. Azərbaycanlılar bildirirlər ki, keçən həftə ermənilər tərəfindən işğal olunan Xocalı şəhərindən qaçan azərbaycanlıların kütləvi qırğını zamanı, ən azı 1000 nəfər öldürülüb. Daha 4000 nəfər yaralanmış, donub ölmüş, yaxud itkin düşmüşdür.

Ağdama qayıdan zaman mülki vertolyotun yığdığı cənazələrə baxdıq. İki nəfər yaşlı kişi və kiçik bir qız qanına qəltan edilmiş, onların əlləri və ayaqları donmuşdu. Dağlıq Qarabağın qarla örtülmüş dağlarından aşağı düşərkən səpələnmiş meyitləri gördük. Görünür, qaçqınlar qaçarkən onlara atəş açmışdılar. Bu hadisədən sonra jurnalistlər azərbaycanlı operator tərəfindən çəkilmiş kadrlara baxdılar. Kadrlarda bizim keçdiyimiz həmin dağların müxtəlif hissələrində onlarla insan cəsədləri əks etdirilirdi”.

***Vaşinqton Post,***
***2 mart 1992-ci il***

❖❖❖

**Frederik Lenqan: (“Röyter”in fotoqrafı):** “Ağdam yaxınlığında azərbaycanlıların meyitlərinin iki yük maşınına doldurulduğunu gördüm. Birinci dəfə 35 meyit saydım və məncə, ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi”.

***2 mart, “Röyter”***

❖❖❖

**R.Patrik, İngiltərənin “Fant Men News” teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur):** “Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz”.

Azərbaycan.-2019.-26 fevral.- S.5.